# Legislative Update Newsletter

## August 13, 2018

Azərbaycan dilində ♦ View all updates ♦ Our services ♦ Media ♦ Key contacts

Overview of recent changes in the Azerbaijani legislation that could materially impact your business.

## Tax and Legal Services

### 1. The State Customs Committee of the Republic of Azerbaijan and the Small and Medium Business Development Agency of the Republic of Azerbaijan concluded a memorandum.

**Document:** Memorandum

**Date of signature:** 8 August, 2018

**Commentary:** On August 8, a Memorandum was signed between the State Customs Committee of the Republic of Azerbaijan and the Small and Medium Business Development Agency of the Republic of Azerbaijan.

The main objective of the Memorandum is to regulate the necessary measures towards the organization of mutual activity and fulfilment of joint projects for the purposes of arrangement of services by achieving entrepreneur satisfaction, educating enterpreneurs regarding the rendered services, adopting international experience on co-operation of state-private sector for executiion of customs legislation and increase of export potential of the small and medium business.

The intention of the Memorandum is to support the development of small and medium businesses and arrange close collaboration between small and medium businesses and relevant state agencies.

### 2. Per diem allowances during business trips within Azerbaijan were increased

**Document:** Decree on norms of per diems for business trips

**Date:** 20 June, 2018

**Commentary:** On 20 June 2018 the Cabinet of Ministers has amended the Decree “On per diem allowances during business trip”. According to the amendments, daily per diem allowance for business trips to Baku has been increased:

| Name of the City | Previous Allowances per day | New Allowances per day |
|---|---|---|
| Ganja, Sumgait | 65 AZN | 90 AZN |
| Nakhchivan | 50 AZN | 70 AZN |
| Other regions | 45 AZN | 65 AZN |

## 3. The Law “On Prevention of the Legalization of Criminally Obtained Funds or Other Property and the Financing of Terrorism” was amended

**Document:** The Law of the Republic of Azerbaijan “On making amendments to the Law of Republic of Azerbaijan on prevention of the legalization of criminally obtained funds or other property and the financing of terrorism” (the “Law”)

**Date of signing:** 12 June 2018

**Commentary:** Further to the Law, the Financial Markets Supervision Chamber of the Republic of Azerbaijan has been determined as a supervisory authority responsible for the compliance with the legal requirements by companies offering investment, leasing, insurance, re-insurance, insurance intermediary, currency exchange services, as well as credit institutions, investment funds and their managers, post offices offering money transfer services and organisers of lottery and sport betting games.

The Financial Monitoring Service of the Republic of Azerbaijan, in its turn, has been determined as a supervisory authority overseeing the physical persons or legal entities providing pawn brokerage and brokerage services on sale-purchase of real estate.

Law is effective as of 22 July 2018.

## 4. Activities of the Financial Monitoring Service of the Republic of Azerbaijan have commenced

**Document:** The Decree of the President of the Republic of Azerbaijan “On Ensuring the Activities  the Financial Monitoring Service of the Republic of Azerbaijan” (the “Decree”)

**Date of signing:** 18 July 2018

**Commentary:** The charter, structure and number of employees of the Financial Monitoring Service of the Republic of Azerbaijan (hereinafter - the Service) have been approved by the Decree. In accordance with the charter of the Service, the latter is a public legal entity, which coordinates activities and carries out unified regulation and supervision for prevention of legalization of criminally obtained funds and other property and financing of terrorism in the Republic of Azerbaijan.

## 5. Activities of the Intellectual Property Agency of the Republic of Azerbaijan have commenced

**Document:** The Decree of the President of the Republic of Azerbaijan “On ensuring the activities of the Intellectual Property Agency of the Republic of Azerbaijan” (the “Decree”)

**Date of signing:** 30 July 2018

**Commentary:** The charter and number of employees of the Intellectual Property Agency of the Republic of Azerbaijan (hereinafter - the Agency) have been approved by the Decree. In accordance with the charter, the Agency is a public legal entity, which coordinates activities, carries out unified regulation and supervision and ensures the development in the field of the copyright and related rights, rights to data bases and layout design of integrated circuits, rights to inventions, utility models, industrial designs, trademarks and geographical indications, rights to Azerbaijani folklore samples (traditional cultural samples), traditional knowledge and other intangible cultural heritage.

Decree is effective as of 1 August 2018

## 6. New Law “On Employment” to be adopted

**Document:** Draft new Law “On Employment” (the “Draft Employment Law”)

**Date of signing:** The Draft Employment Law was approved at the third session of the Parliament of the Republic of Azerbaijan on 29 June 2018

**Commentary:** the Draft Employment Law designates the legal, economical and organizational basis of the state policy on assistance to employment, as well as the government guarantees in the field of social security of job seekers and unemployed persons. The Draft Law shall be applicable to the citizens of the Republic of Azerbaijan, foreigners and stateless persons living in the Republic of Azerbaijan. The definition “employed persons” shall cover the wage earners, persons working on the basis of contracts under civil legislation, people getting full-time education, entrepreneurs, people who own the agricultural land plots, members of the family farming and others.

Moreover, for the first time, the Draft Employment Law defines the wage earners correctly. The current Law of the Republic of Azerbaijan On Employment, dated 2 July 2001 which will be abolished following the adoption of the Draft Employment Law, determines those who have other paid work (service), i.e. persons working on the basis of contracts under civil legislation as wage earners. However, the Draft Employment Law designates only the persons who conclude an employment agreement (contract) with the employer in accordance with the Labour Code of the Republic of Azerbaijan and carry out the labour activity at their workplaces for salary, as wage earners. The employees working on the basis of contracts under civil legislation shall be considered as the persons who carry out the services for a certain fee without creating labor relations by concluding a service or other types of civil contracts in accordance with the Civil Code of the Republic of Azerbaijan.

Furthermore, for the first time, the Draft Employment Law envisages the provision about the establishment of the vacancy databank. According to the Draft Employment Law, the vacancy databank shall be established on the basis of the information on newly opened places of employment and vacancies, which are included to the electronic information system by employers. The employers, who do not include the information about newly opened place of employment or vacancies with indicating the amount of the salary in accordance with the procedure and form designated by the relevant executive authority (body) within 5 (five) working days after the opening of new place of employment and vacancies, shall be held liable under the applicable legislation.

The Draft Employment Law also envisages new definitions, such as personal employment program, informal employment, self-employment, job standards, social enterprise, staffing table, new place of employment etc.

## 7. Entrepreneurship Development Fund was established

**Document:** The Decree of the President of the Republic of Azerbaijan “On Improvement of State Support Mechanism for Entrepreneurship Development in the Republic of Azerbaijan” (the “Decree”)

**Date of signing:** 31 July 2018

**Commentary:** According to the Decree, the National Fund for Support of Entrepreneurship of the Republic of Azerbaijan was abolished and instead the Entrepreneurship Development Fund under the Ministry of Economy of the Republic of Azerbaijan (the “Fund”) was established. Also, the charter of the Fund, management structure and rules on usage of the Fund's resources were approved.

According to its charter, the main purpose of the Fund's activity is to finance through softloans investment projects of entrepreneurship subjects as a priority direction of social-economic development of the Republic of Azerbaijan.

Decree is effective as of 4 August 2018

## 8. The process for issuance of permits for construction and exploitation of construction facilities in Baku has been changed

**Document:** The Decree of the President of the Republic of Azerbaijan “On Additional Measures to Improve Governance in the Field of Urban Development” (the “Decree”)

**Date of signing:** 1 August 2018

**Commentary:** According to the Decree, the Baku City Executive Authority's Office of Architecture and Urban Planning has been subordinated to the State Committee on Urban Planning and Architecture of the Republic of Azerbaijan.

Thus, the State Committee on Urban Planning and Architecture of the Republic of Azerbaijan carries out issuance of permits for construction and exploitation of construction facilities in the administrative territory of Baku city (except for the cases when permits for the construction and exploitation of construction facilities are issued by the Cabinet of Ministers of the Republic of Azerbaijan and the State Agency for Housing Construction).

Decree is effective as of 2 August 2018

# Our key contacts




**Murat Karakas**

Managing Partner

T +994 12 404 8910
E MuratKarakas@kpmg.ru





**Mushfig Aliyev**

Partner,
Head of Tax and Legal
Department

T +994 12 404 8910
E maliyev@kpmg.az





**Farid Isayev**

Director,
Head of Legal
Services

T +994 12 404 8910
E fisayev@kpmg.az


www.kpmg.az

Privacy | Legal


You have received this message from KPMG Azerbaijan Limited. If you wish to unsubscribe from the Legislative Update Newsletters, please click here. If you wish to unsubscribe from all KPMG communications, please click here.


If you have any questions, please send an e-mail to office@kpmg.az.

KPMG Azerbaijan Limited, Port Baku, 12th floor, 153, Neftchilar Avenue, Baku, AZ1010, Republic of Azerbaijan


© 2018 KPMG Azerbaijan Limited, a company incorporated under the Laws of Guernsey, acting through its Representative Office in the Republic of Azerbaijan and a member firm of the KPMG network of independent member firms affiliated with KPMG International Cooperative (“KPMG International”), a Swiss entity. All rights reserved.

The KPMG name and logo are registered trademarks or trademarks of KPMG International. © 2018 KPMG Azerbaijan Limited, a company incorporated under the Laws of Guernsey, acting through its Representative Office in the Republic of Azerbaijan and a member firm of the KPMG network of independent member firms affiliated with KPMG International Cooperative (“KPMG International”), a Swiss entity. All rights reserved.

# Qanunvericiliyə Dair Mühüm Dəyişikliklər

*Avqust 13, 2018*



Biznes fəaliyyətinizə əhəmiyyətli dərəcədə təsir göstərə biləcək Azərbaycan qanunvericiliyinə edilən son dəyişikliklərin icmalını Sizin diqqətinizə çatdırırıq.

## Vergi və Hüquq Xidmətləri

### 1. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi arasında əməkdaşlığa və qarşılıqlı fəaliyyət göstərilməsinə dair Anlaşma Memorandumu imzalanıb.

**Sənəd:** Memorandum

**Tarix:** Müqavilə, 8 avqust 2018-ci ildə imzalanmışdır

**Şərh**: Memorandumun imzalanmasındaki məqsəd sahibkar məmnunluğuna nail olunmaqla xidmətlərin təşkili, göstərilən xidmətlər haqqında sahibkarların maarifləndirilməsi, eləcə də gömrük qanunvericiliyinin icrası zamanı dövlət-özəl sektor əməkdaşlığı üzrə beynəlxalq təcrübənin öyrənilməsi, kiçik və orta biznesin ixrac potensialının artırılması məqsədilə qarşılıqlı fəaliyyətin təşkili və birgə layihələrin icra edilməsi istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsini tənzimləməkdir.

Memorandumum məqsədi kiçik və orta sahibkarlığın inkişafını dəstəkləmək üçün birgə səylər göstərmək, bu istiqamətdə aidiyyəti dövlət orqanları ilə yaxından əməkdaşlığı təmin etməkdir.

### 2. “Ezamiyyə xərclərinin normaları haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 25 yanvar tarixli 14 nömrəli qərarında aşağıdaki dəyişikliklər edilib

**Sənəd:** “Ezamiyyə xərclərinin normaları haqqında” qərar

**Tarix:** 20 ıyun 2018

**Şərh:** Ezamiyyə xərclərinin normaları haqqında edilən dəyişiklikərə əsasən Bakıya işgüzar səfərlər üçün günlük ödəniş haqqında dəyişikliklər edilmişdir:

| Şəhərin adı | Günlük əvvəlki ödənişlər | Günlük yeni ödənişlər |
|---|---|---|
| Gəncə, Sumqayıt | 65 AZN | 90 AZN |
| Naxçıvan | 50 AZN | 70 AZN |
| Digər bölgələr | 45 AZN | 65 AZN |

### 3. Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında qanununa dəyişiklik edildi

**Sənəd:** "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Qanunu ("Qanun")

**İmzalandığı tarix:** 12 iyun 2018-ci il

**Şərh:** Qanuna əsasən, lizinq, investisiya, sığorta, təkrarsığorta, sığorta vasitəçiliyi, valyuta mübadiləsi xidməti göstərən şirkətlər, habelə kredit təşkilatları, investisiya fondları və bu fondların idarəçiləri, pul vəsaitlərinin köçürülməsi ilə məşğul olan poçt xidməti müəssisələr, lotereya və idman mərc oyunları təşkilatçıları tərəfindən Qanunun tələblərinə əməl edilməsinə nəzarəti həyata keçirən orqan kimi Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası müəyyən edilmişdir.

Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti isə lombardlar və daşınmaz əmlakın alqı-satqısı üzrə vasitəçilik xidmətləri göstərən fiziki və ya hüquqi şəxslərə nəzarəti həyata keçirən orqan kimi müəyyən edilmişdir.

Qanun 22 iyul 2018-ci il tarixindən etibarən qüvvəyə minib.

### 4. Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin fəaliyyəti formalaşdırılır

**Sənəd:** "Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı ("Fərman")

**İmzalandığı tarix:** 18 iyul 2018-ci il

**Şərh:** Fərmanla Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinin (bundan sonra – Xidmət) nizamnaməsi, strukturu və işçilərinin say həddi təsdiq edilmişdir. Xidmətin Nizamnaməsinə əsasən, Xidmət Azərbaycan Respublikasında cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısını almaq sahəsində vahid tənzimləməni və nəzarəti həyata keçirən, fəaliyyəti əlaqələndirən publik hüquqi şəxsdir.

### 5. Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin fəaliyyəti formalaşdırılır

**Sənəd:** "Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı ("Fərman")

**İmzalandığı tarix:** 30 iyul 2018-ci il

**Şərh:** Fərmanla Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin (bundan sonra – Agentlik) nizamnaməsi və işçilərinin say həddi təsdiq edilmişdir. Nizamnaməyə əsasən Agentlik müəlliflik hüququ və əlaqəli hüquqlar, məlumat toplularına və inteqral sxem topologiyalarına hüquqlar, ixtiralara, faydalı modellərə, sənaye nümunələrinə, əmtəə nişanlarına və coğrafi göstəricilərə hüquqlar, Azərbaycan folkloru nümunələrinə (ənənəvi mədəni nümunələrə), ənənəvi biliklərə və digər qeyri-maddi mədəni irs nümunələrinə hüquqlar sahəsinin inkişafını təmin edən, bu sahədə vahid tənzimləməni və nəzarəti həyata keçirən və fəaliyyəti əlaqələndirən publik hüquqi şəxsdir.

Fərman 01 avqust 2018-ci il tarixindən etibarən qüvvəyə minib.

## 6. Məşğulluq haqqında yeni qanun qəbul olunacaq

**Sənəd:** "Məşğulluq haqqında" Azərbaycan Respublikasının yeni Qanun Layihəsi ("Məşğulluq haqqında Qanun layihəsi")

**Tarix:** Məşğulluq haqqında Qanun layihəsi 29 iyun 2018-ci il tarixində Azərbaycan Respublikasının Milli Məclisinin III oxunuşundan keçmişdir.

**Şərh:** Məşğulluq haqqında Qanun layihəsi məşğulluğa kömək sahəsində dövlət siyasətinin hüquqi, iqtisadi və təşkilati əsaslarını, eləcə də işaxtaran və işsiz şəxslərin sosial müdafiəsi sahəsində dövlət təminatlarını müəyyən edir. Məşğulluq haqqında Qanun layihəsi Azərbaycan vətəndaşlarına, ölkədə yaşayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə şamil edilir. "Məşğul şəxslər" anlayışına muzdla işləyənlər, mülki-hüquqi xarakterli müqavilələrlə işləyənlər, əyani təhsil alanlar, sahibkarlar, mülkiyyətində kənd təsərrüfatına yararlı torpaq payı olanlar, ailə kəndli təsərrüfatının üzvləri və sair aiddir.

Qeyd edək ki, muzdla işləyən şəxslər ilk dəfə olaraq Məşğulluq haqqında Qanun layihəsində düzgün müəyyən edilib. Məşğulluq haqqında Qanun layihəsi qəbul olunduqdan sonra ləğv olunacaq qüvvədə olan 2 iyul 2001-ci il tarixli "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununda, haqqı ödənilən başqa işi (xidməti) olanlar, yəni mülki-hüquqi xarakterli müqavilə ilə işləyənlər də muzdla işləyən şəxslərə aid edilib. Məşğulluq haqqında Qanun layihəsində isə bu kateqoriyaya yalnız Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun olaraq işəgötürənlə əmək müqaviləsi (kontrakt) bağlayaraq, müvafiq iş yerlərində əmək fəaliyyətini əmək haqqı müqabilində yerinə yetirən şəxslərin aid edilib. Mülki-hüquqi xarakterli müqavilələrlə işləyənlərə isə Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq qarşı tərəflə xidmət və başqa tipli mülki müqavilə bağlayıb əmək münasibətləri yaratmadan müəyyən haqq müqabilində işləri (xidmətləri) yerinə yetirən şəxslər aid ediliblər.

Həmçinin, Məşğulluq haqqında Qanun layihəsində ilk dəfə olaraq vakansiya bankının yaradılması ilə bağlı xüsusi maddə daxil edilib. Məşğulluq haqqında Qanun layihəsinə uyğun olaraq, vakansiya bankının elektron informasiya sistemində işəgötürənlərin yeni yaradılan iş yerləri və vakansiyalar barədə sistemə daxil etdikləri məlumatlar əsasında müvafiq icra hakimiyyəti orqanı tərəfindən yaradılması nəzərdə tutulur. İşəgötürənlər yeni iş yeri yarandığı və ya iş yeri boşaldığı gündən ən geci 5 (beş) iş günü müddətində əməkhaqqı göstərilməklə bu barədə məlumatları müvafiq orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydada və formada elektron informasiya sisteminə daxil etməyən etməyən işəgötürənlər qanunla müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

Əlavə olaraq, Məşğulluq haqqında Qanun layihəsi ilə fərdi məşğulluq proqramı, qeyri-formal məşğulluq, özünüməşğulluq, peşə standartları, sosial müəssisə, ştat vahidlərinə dair cədvəl, yeni iş yeri və s. kimi yeni anlayışlar daxil edilib.

## 7. Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu yaradıldı

**Sənəd:** "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı ("Fərman")

**İmzalandığı tarix:** 31 iyul 2018-ci il

**Şərh:** Fərmanla Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondu ləğv olunub, onun əvəzinə isə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu ("Fond") publik hüquqi şəxs

təsis edilib. Həmçinin Fərmanla Fondun nizamnaməsi, idarəetmə strukturu və Fondun vəsaitindən istifadə Qaydası təsdiq edilmişdir.

Nizamnaməsinə əsasən, Fondun fəaliyyətinin əsas məqsədi Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının prioritet istiqamətləri üzrə sahibkarlıq subyektlərinin investisiya layihələrini güzəştli kredit vəsaiti hesabına maliyyələşdirməkdir.

Fərman 04 avqust 2018-ci il tarixindən etibarən qüvvəyə minib.

## 8. Bakı şəhərində tikinti obyektlərinin tikintisinə və istismarına icazələrin verilməsi prosesi dəyişdirildi

**Sənəd:** "Şəhərsalma fəaliyyəti sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı ("Fərman")

**İmzalandığı tarix:** 1 avqust 2018-ci il

**Şərh:** Fərmana əsasən, Bakı Şəhər İcra Hakimiyyəti Başçısı Aparatının Memarlıq və Şəhərsalma Baş İdarəsi Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin tabeliyinə verilib. Beləliklə, Bakı şəhərinin inzibati ərazisində tikinti obyektlərinin tikintisinə və istismarına icazələrin verilməsini (tikinti obyektlərinin tikintisinə və istismarına icazələrin Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən verildiyi hallar istisna olmaqla) Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi həyata keçirir.

Fərman 02 avqust 2018-ci il tarixindən etibarən qüvvəyə minib.

# Bizimlə əlaqə




**Murat Karakas**

İdarəedici Partnyor

T +994 12 404 8910
E MuratKarakas@kpmg.ru



**Müşfiq Əliyev**

Partnyor,
Vergi və Hüquq
Departamentinin rəhbəri

T +994 12 404 8910
E maliyev@kpmg.az



**Fərid İsayev**

Direktor,
Hüquq Xidmətlərinin
rəhbəri

T +994 12 404 8910
E fisayev@kpmg.az

| | |
|---|---|
| www.kpmg.az | Privacy \| Legal<br><br>You have received this message from KPMG Azerbaijan Limited. If you wish to unsubscribe from the Legislative Update Newsletters, please click here. If you wish to unsubscribe from all KPMG communications, please click here.<br><br>If you have any questions, please send an e-mail to office@kpmg.az.<br><br>KPMG Azerbaijan Limited, Port Baku, 12th floor, 153, Neftchilar Avenue, Baku, AZ1010, Republic of Azerbaijan<br><br>© 2018 KPMG Azerbaijan Limited, a company incorporated under the Laws of Guernsey, acting through its Representative Office in the Republic of Azerbaijan and a member firm of the KPMG network of independent member firms affiliated with KPMG International Cooperative (“KPMG International”), a Swiss entity. All rights reserved.<br><br>The KPMG name and logo are registered trademarks or trademarks of KPMG International. © 2018 KPMG Azerbaijan Limited, a company incorporated under the Laws of Guernsey, acting through its Representative Office in the Republic of Azerbaijan and a member firm of the KPMG network of independent member firms affiliated with KPMG International Cooperative (“KPMG International”), a Swiss entity. All rights reserved. |